AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN
İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

AZ1122 Bakı şəhəri,
H.Zərdabi küç, 96

Tel: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçt: office@isim.az http://www.isim.az

"____" ____________2015-ci il №____________

**ƏMR № 81**

**Bakı şəhəri** **10 aprel 2015-ci il**

**"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının icrası məqsədi ilə görüş və mühazirələrin təşkili barədə"**

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2011-ci il tarixli 1621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının aidiyyəti bəndlərinin icrasının təmin edilməsi məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6.6.1-ci bəndinin 2-ci və 4-cü hissələrinə uyğun olaraq 2015-ci ilin sonunadək:

1.1. Gənclər arasında zərərli vərdişlərin profilaktikası ilə bağlı Bakı şəhərindəki 15 ali və orta təhsil müəssisəsində tələbə/şagird heyəti ilə həkim-mütəxəssislərin görüşləri və mühazirələr təşkil edilsin;

1.2. Piylənmə, qeyri-sağlam qidalanma və fiziki passivlik, infeksion və qeyri-infeksion xəstəliklərin profilaktikasına dair radio və televiziya kanallarında mütəxəssislərin görüşləri və mühazirələr təşkil edilsin.

2. Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələrin təşkili və keçirilməsi üçün iş planları təsdiq edilsin (Əlavə).

3. Baş mühasib Abuzər Məmmədova tapşırılsın ki, Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələrin təşkili və keçirilməsi üçün iş planlarına uyğun xərclərin smetaları tərtib edilsin və həmin smetalar üzrə vəsaitin İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsi təmin edilsin.

4. Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadəyə tapşırılsın ki, təşkili və keçirilməsinə nəzarət edilməklə Əmrin 1-ci bəndində qeyd olunan hər bir görüş və mühazirə barədə mütəmadi olaraq məlumat verilsin.

5. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**